# Yazmaq, yaratmaq həvəsi ilə istedadın vəhdəti

**Qarşımda şair, yazıçı-publisist Adəm Asnının "Sığallı xatirələr" adlı kitabının hələ yenicə çapa hazırlanan nüsxəsi durur. Vaxtımdan ayırıb iki gün ərzində maraqla oxudum bu kitabı. Adəm Asnı gözəl insan, sədaqətli dost olmaqla yanaşı, istedadlı yazıçı və şair, AYB və AJB-nin üzvüdür. Mənim onunla tanışlığım tanınmış, gözəl yazıçı, AzTv-nin əməkdaşı, bir çox telelayihələrin müəllifi və aparıcısı Miraslan Bəkirlinin vasitəsi ilə oldu. Adəmi qısa müddətdir tanısam da, ilk görüşdən öz istedadı ilə diqqətimi çəkdi. Maraqlı və sinəsi dolu insandır. Ədəbi yaradıcılığa gec başlasa da, bir neçə kitabın müəllifi olan Adəm müəllimin sinəsi qaynar bulaq kimi çağlayır.**

Şairin "Ovqat", "Duyğuların ifadəsi" və "Bir röya həsrətində" kitabları ilə tanış olduqdan sonra onun iç dünyasına bir az da yaxından bələd oldum. Şeirləri üçün maraqlı mövzular seçən yazarın həmin mövzuları maraqlı, özünəməxsus şeir dilində də oxucuya çatdıra bilməsi, şeirləri üçün bəzən heç müraciət olunmayan, yaxud çox az-az müraciət olunan mövzular ("Körpə qığıltısı", "Körpə güləndə", "Köhnə, keçmiş kişilər") seçməsi də diqqətimi ayrıca cəlb etdi. Zənnimcə bu işdə ona maraqlı həyat yolu, böyük söz ehtiyatı, geniş mütaliəsi, dünyagörüşü və iti müşahidə qabiliyyəti də yardımçıdır.

### *Məhz bu keyfiyyətlərin təsiridir ki,*

şeirləri ilə oxucunu düşündürməyə müvəffəq olur və yuxarıda adlarını çəkdiyim kitablarda verilmiş "Kəndimizə qış gəlib", "Bu yaz gedək Qarabağlara", "Bahar", "Kəndimizdə yaza bax", "Bizim toylar bir zaman" və bir çox bu kimi digər şeirlərini oxuyanda oxucu özünü şeirdə bəhs olunan məkanda, yaxud vəsf olunan mənzərənin təsvir olunduğu möhtəşəm bir tablonun qarşısında hiss edir.

Eyni sözləri "Sığallı xatirələr"dəki "Röya", "Uşaqlıq Novruzum" və s şeirlər barədə də demək olar. Şair "Röya" şeirində payızı, xəzan yarpaqlı bağı, göy gurultusunu və bu məkandakı görüşünü sadə və səmimi dillə təsvir edir:

*Şimşək çaxdı, sanki göydə yanğındı,*
*Elə bil ki, səma qızardı, pörtdü.*
*Diksinib o qız da mənə sığındı.*
*Pambıq əlləriylə üzünü örtdü.*

A.Asnının bir müsbət tərəfini də qeyd etmək lazımdır; - daim öyrənmək həvəsi.

Elə bu səbəbdən də onun ilkin şeirləri ilə müqayisədə son vaxtlar yazdığı və sayca dördüncü olan "Sığallı xatirələr" adlı kitabda verilmiş şeirlərinin, qəzetlərdə dərc olunmuş hekayələrinin üslubca, keyfiyyət, tərz və deyimcə tam fəqli bir görkəm aldığının, yaradıcılığında tez bir zamanda ciddi bir dönəminin başlandığının, şair və yazıçı kimi daha da püxtələşdiyinin şahidi oluruq.

### *Yazarın bu kitabdakı şeirləri*

istər lirika, istər poeziya, istər mövzu, istərsə də üslub, tərz baxımından əvvəlki şeirlərindən fərqlənir.

Bunun sübutu kimi şairin bir neçə şeirinə nəzər salaq. "Səni görüm öləsən" şeirində:

*Atacaqdın niyə bəs,*
*Ümid verirdin əbəs?*
*Söyləyirəm kəsən-kəs:*
*Qarğıyıram, biləsən -*
*Səni görüm öləsən.*

deyən şair sonda şeiri həsr etdiyi gözəl ona vəfasızlıq etsə də, "mən belə, sən eləsən" deyə onu qarğımağa qıymadığını etiraf edir.

"Sığallı xatirələr" şeirində:

*Halım Məcnunun halı,*
*Bir səhra yox qaçım da..*
*Əllərinin sığalı,*
*Hələ durur saçımda.*

deyə son görüşdə saçlarına çəkilmiş bir sığalı hələ də saçında hiss etdiyinə, zamanın bu sığalı silmədiyinə oxucunu inandıra bilir. "Gəl görüşək bu bahar" şeirində:

*Yel olub ötür zaman,*
*Ölüm oyaqdır hər an -*
*Gələn yaza yox güman,*
*Gəl görüşək bu bahar.*

*Keçmişi silmək çətin,*
*Qədəri bilmək çətin.*
*Həsrətli ölmək çətin,*
*Gəl görüşək bu bahar.*

Qeyd etmək lazımdır ki, bir çox şeirlərində A.Asnı hisslərini elə səmimi və portik ifadə edir ki, oxucuda müraciət olunan gözəlin həqiqətən də mövcud olduğuna, xatırlanan hadisəni nə zamansa yaşadığına, bütün bunların təxəyyülün məhsulu olmadığına şübhə yeri qalmır. Elə yuxarıda adını çəkdiyim şeirdən daha bir bəndə fikir verək:

*Yenə axşam çağında,*
*Yenə məktəb bağında-*
*Çəpərin qırağında,*
*Gəl görüşək bu bahar.*

"Sürgündəyəm" şeirində:

*Sənə gəlməsin asan,*
*Bunca sürgün qalasan.*
*Eşqini də qəlbimdə*
*Sürgünə yollamısan*

deyən A.Asnı bu və digər şeirlərində hisslərini həzin, səmimi şeir dilində, poetik ifadələrlə oxucuya çatdırmağa müvəffəq olub.

Mövzu, üslub və tərzdəki yeniliklərlə bərabər şair əvvəlki ənənəsinə də sadiq qalır - tərbiyəvi, nəsihətamiz mövzulara da müraciət edir.

Məsələn, "Mey içməyin sonu yox" şeirində:

*Salma şəraba meyil,*
*O, dərdə dərman deyil.*
*Kim ki, dərddən mey dadır-*
*Öz-özünü aldadır*

yaxud "Dinlə ki, dinlənəsən" şeirində:

*Söhbət vaxtı səbri bas,*
*Həmsöhbətə qulaq as.*
*Danışanı səninlə,*
*Hövsələ ilə dinlə*

deyə tövsiyə edir. Həm də bu və bu qəbildən olan "Əli qabarlı dost", "Harda görsən", "Xoş xatırlanaq", "Kin küdurət", "Xoşbəxt qocalaq" və bir neçə başqa şeirlərində nəsihətin, tövsiyənin məğzinin, hər hansı hərəkətin pis və yaxşı cəhətlərinin "niyə"sini sadə və inandırıcı dildə oxucuya çatdıra bilir. Bu yerdə, A.Asnının bu mövzudakı şeirlərindən danışarkən onun "Dördmisralıqlar"ı ba-



rədə yazmamaq olmaz. Hər biri ayrılıqda bir bənddən - dörd misradan ibarət olan bu şeirlərin əslində hərəsi ayrıca və bir neçə bəndlik şeirlərdir. Sadəcə şair həmin bir neçə bəndi ustalıqla bir bəndə sığışdırmağa, geniş bir fikri bir bənddə çatdırmağa nail olur. Tanınmış yazar Əbülfət Mədətoğlunun "Ədalət" qəzetinin 15 may 2018-ci il tarixli nömrəsində dərc olunmuş FİKRİ, HİSSİ SÖZƏ ÇEVİRƏN ADƏM" sərlövhəli məqaləsində qeyd etdiyi kimi, A.Asnının "hətta kiçik həcmli, yəni dörd misradan ibarət olan şeirlərində də o, fikrə don geyindirməyi bacarır, fikri oxucuya biçimli, anlayıb qəbul edəcəyi səviyyədə təqdim edir."

"Dördmisralıqlar"dan bir neçə nümunə gətirmək istədim və demək olar ki, bəndlərin hər birini nümunə gətirmək olar deyə açığı seçim etməkdə duruxdum.

Gəlin fikir verək:

*Arxadan zərbə vurma,*
*Bir kimsəyə tor qurma.*
*Büdrəyib sürüşərsən,*
*Öz toruna düşərsən.*

*Bir doğmanı dəfn etsək,*
*Biz hələ qalmırıq tək.*
*Doğmalığı dəfn etsək,*
*Qalarıq tənha və tək.*

*Dörd şeyin bu həyatda,*
*Azın da çox bil hətta -*
*Xəstəlik, yanğın, düşmən,*
*Borcu qəsd edirəm mən.*

*Ağıllı yüksəlirkən,*
*Enməyə də yol şaxlar,*
*Bilir birdən pilləkən*
*Sınar, nərdivan laxlar.*

*Müdrik qalxarsa dağa,*
*Aram ilə dırmaşar.*
*Nadan qaçıb qabağa,*
*Tez qalxsa da, tez aşar.*

*İnsanı bir çirkabdan,*
*Çəkib çıxarmaq asan.*
*Çirkabısa insandan,*
*Güc gərək çıxarasan.*

Və qeyd etdiyim kimi, "Dördmisralıqlar"da oxucunu düşündürən, ibrətamiz, nəsihətamiz belə nümunələr yetərincədir.

***Adəm Asnının şeirləri haqqında daha geniş danışmaq, təhlil etmək olar. Lakin gəlin bunu oxucuların ixtiyarına buraxaq.***

***Çünki kitabda verilmiş şeirlərin oxucunu düşündürəcəyinə, zövqünü oxşayacağına, hər bir oxucunun özlüyündə onları təhlil edəcəyinə şübhə etmirəm.***

Sonda bir neçə kəlmə də A.Asnının hekayələri barədə. "Ovqat" kitabında satirik hekayələri yer almış Adəm müəllim bu dəfə də hekayə janrına müraciət etmiş və uğurlu, maraqlı nümunələr ərsəyə gətirməyə müvəffəq olmuşdur. Bu hekayələrin bir neçəsi ilə hələ qəzetlərdən, "Azərbaycan" jurnalından tanış idim. A.Asnının hekayələrində mövzular müxtəlif olsa da, əsasən yaşadığımız cəmiyyətdə hər gün gördüyümüz, haqqında danışdığımız hadisələrdir. Ona görə də yazıları maraqlı və oxunaqlıdır. Yazarı yaşadığımız kəşməkeşli zamanda milli-mənəvi dəyərlərimizə və adətlərimizə kölgə sala biləcək hadisələr narahat edir. Artıq qeyd etdiyim kimi, Adəm Asnı ədəbiyyata gec gəlsə də zəngin həyat təcrübəsi, uzun müddət çoxsaylı kollektivlərdə, müxtəlif xarakterli insanlarla bir yerdə işləməsi hekayələrin süjetlərində də özünü göstərməkdədir və elə buna görə də hekayələr həyatılıq, hadisələrin inandırıcı olması ilə səciyyələnir. Məhz bu səbəbdən bir dəfə Adəmin hekayələri barədə söhbət edərkən Miraslan Bəkirlinin dediyi (və mənim də tam şərik olduğum) kimi rejissor gözü ilə baxdıqda bu hekayələrin hər birinin tam və qısametrajlı film üçün hazır ssenari, hazır film olduğunu görürük. İnanıram ki, Adəm Asnı daha maraqlı şeir və hekayələrlə oxucuların rəğbətini qazanacaq.

### *Onda yazmaq, yaratmaq eşqi,*

həvəsi var və məqsədinə də nail ola bilir. Yəni yaratdığı canlı, həyatı obrazlarla oxucunu intizarda saxlamağa müvəffəq olur. Misal üçün, "Təsəlli", "Qaranquş yuvası", "Zavallı Məsud", "Qismət", "Vida" və bir çox digər hekayələrini oxuduqca oxucu sonluğun necə olacağı intizarı ilə tələsir, özlüyündə müxtəlif sonluqlar, hadisələrin müxtəlif inkişaf xəttini qurur, hekayəni oxuduqdan sonra belə bir müddət orada təsvir olunan hadisənin təsiri altında olur, qəhrəmanın bu və digər hərəkətini özlüyündə təhlil edir, müəllif özü olardısa hekayəni hansı sonluqla bitirərdi kimi düşüncələrə dalır ki, bu da heç şübhəsiz müəllifin uğurudur. Bir-birindən fərqli və maraqlı mövzu seçimi, müxtəlif süjet xətti isə hekayələri daha oxunaqlı, daha maraqlı edir.

**Ümid edirəm ki, yazmaq, yaratmaq, öyrənmək həvəsi Adəm Asnının istedadını daha da cilalayacaq və bu vəhdət hələ kitab-kitab, yeni-yeni uğurlara imza atacaq.**

**Mehman Göytəpəli,**
**AYB və AJB-nin üzvü**